Qərbi Kaspi Universiteti

Ekoloji-Təmiz Fəaliyyət Planı

Ətraf mühitə dair təlimatlar

Qərbi Kaspi Universiteti (QKU) təkcə tələbələrini, universitet işçilərini deyil, həm də ictimaiyyəti davamlı mühitdə töhfə verməyə dəvət edir. Bu təlimatın məqsədi ekoloji problemlər barədə məlumatlılığı artırmaq və bunun zərərli nəticələrini aradan qaldırmaq üçün təşəbbüs göstərməkdir. Universitet azaltma, yenidən istifadə və təkrar istifadə prinsipinlərini dəstəkləyir.

Bu planı həyata keçirərək ətraf mühitə əhəmiyyətli dərəcədə təsir göstərə bilərik:

- Universitetin bütün fakültələrində və şöbələrində həm nəzəri, həm də praktik qaydada ekoloji məsuliyyət və tullantıların idarə olunması ilə məşğul olmaq
- Lazım olmadıqda su kranını bağlayaraq su istehlakını azaltmaq
- Şəxsi avtomobillər əvəzinə ictimai nəqliyyat vasitələrindən istifadə edərək karbon izini minimuma endirmək
- Birdəfəlik istifadə olunan plastik butulkalardan daha çox şüşə butulkaları istifadə etmək
- Kağızların hər iki tərəfini səmərəli istifadə etmək və istifadə olunmuş kağızları yalnız kağızlar üçün ayrılmış zibil qutularına atmaq
- Plastik butulkaları və torbaları yalnız plastiklər üçün ayrılmış zibil qutularına atmaq
- Enerji səmərəliliyinə nail olmaq üçün led lampalara üstünlük vermək
- Lazım olmadığı təqdirdə işıqları və kompüterləri söndürmək
- Çiçəklər və digər bitkilər yetişdirmək

Qərbi Kaspi Universiteti tələbələrə, universitet işçilərinə və ziyarətçilərinə binalarında və veb saytında ətraf mühitlə bağlı təlimat verir. Universitet, günəş enerjisi almaq üçün panellərin qurulması ilə yanaşı, universitetin təsərrüfatında və bitkilərində istifadə üçün yağış suyunun təmizlənməsi kimi alternativ enerji mənbələrindən istifadə edir.


KAĞIZ
IDEA
AZERSUN
PLASTİK
IDEA
AZERSUN